Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

# STEAM’ool Olimpiadası

## STEAM’ool Olimpiadası Təlimat Sənədi

Bakı 2025

# STEAM'ool Olimpiadası

## 1. Ümumi məlumat

STEAM'ool Olimpiadası müasir təhsil yanaşmalarına əsaslanan, bilik və bacarıqların qiymətləndirilməsinə yönəlmiş bilik yarışıdır. Olimpiadanın əsas məqsədi məktəblilərin elmi-texniki sahələrə marağını artırmaq, onların analitik və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək və XXI əsr kompetensiyalarını formalaşdırmaqdır.

İştirakçılar Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat (STEAM) istiqamətlərini əhatə edən test tapşırıqlarını fərdi qaydada cavablandırırlar.

## 2. İştirak şərtləri

- Olimpiadada yalnız fərdi formada iştirak mümkündür.
- İştirak üçün yaş qrupları aşağıdakı kimidir:
  - 8–10 yaş
  - 11–13 yaş
  - 14–16 yaş
  - 17+ yaş

## 3. Olimpiadanın keçirilmə qaydası

- İmtahan onlayn formatda Beynəlxalq STEAM Azərbaycan Festivalı zamanı keçiriləcək.
- İmtahanın ümumi müddəti 45 dəqiqə təşkil edir.
- Suallar yalnız qapalı (test) formatında təqdim olunur.
- Tapşırıqlar STEAM istiqamətlərini – Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyatı – əhatə edir.
- Cavablar elektron sistem üzərindən təqdim edilir və nəticələr avtomatik qiymətləndirilir.
- İştirakçılar topladıqları xallara əsasən sıralanır.

## 4. Qiymətləndirmə və nəticələr

- Hər düzgün cavab üçün müəyyən edilmiş xal əlavə olunur.
- Yekun nəticə ümumi bal əsasında formalaşır.
- Bərabər nəticə halında cavablandırma sürəti və dəqiqlik nəzərə alınır.

## 5. Qaliblərin mükafatlandırılması

- Hər yaş qrupu üzrə ən yüksək nəticə göstərən iştirakçı Olimpiadanın qalibi elan olunacaq.